# "SOCAR YAY MƏKTƏBİ-2015"

# Layihənin iştirakçılarına sertifikatlar təqdim olunmuşdur








**Dekabrın 17-də SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentində "Yay Məktəbi-2015" layihəsinin iştirakçılarına sertifikatların təqdimetmə mərasimi keçirilmişdir. Tədbir "Neft Daşları" və "Günəşli" yatağında baş vermiş faciədə həlak olanların xatirəsinin 1 dəqiqəlik sükutla anılması ilə başlamışdır.**







Daha sonra İnsan Resursları Departamentinin rəisi Asif Bəkirli çıxış etmiş və baş vermiş hadisədə həlak olanların ailəsinin ağrı-acılarını paylaşdığını və bunun ölkə səviyyəsində də xüsusi diqqətdə saxlanıldığını qeyd etmiş, şərəfli neftçi peşəsinin çətinliklərini gənc iştirakçıların diqqətinə çatdırmışdır.

A.Bəkirli SOCAR-da işçilərə əməyin mühafizəsi və təhlükəsizlik texnikası barədə hər zaman yüksək səviyyədə təlimlər keçirildiyini, təhlükəsiz əmək şəraitinin SOCAR üçün ən yüksək prioritet əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamışdır. O, tələbələrə dövlət siyasətinin əsas istiqamətlərindən olan gənclər siyasətinin davamı olaraq SOCAR-ın gənclərə dəstəyindən, gənclərlə bağlı həyata keçirdiyi layihə və proqramlardan söz açmışdır. Eyni zamanda yay məktəbinin gənclərə verdiyi töhfələr, həmçinin cəmiyyətimizdə bu layihənin nüfuzunun artması nəticəsində ölkə daxilində və dünyanın tanınmış universitetlərində təhsil alan gənclərin layihəyə marağının artmasını vurğulamışdır. Həmçinin gəncləri dünyada baş verən proseslərin fonunda xaricdə və daxildə ölkəmizə qarşı yönəlmiş təxribatçı addımlara qarşı fəal mübarizə aparmağa, milli maraqlarımızın qorunmasını təmin etmək istiqamətində əllərindən gələni etməyi əsirgəməməyə, haqsız iradlara qarşı ədalətli mövqe sərgiləməyə çağırmışdır. A.Bəkirli çıxışının sonunda, SOCAR-ın gələcək layihələrində gənc potensial kadrlara böyük ehtiyac yaranacağını və bu səbəbdən də şirkətin gənclərlə bağlı layihələrinin iştirakçılarının daim diqqət mərkəzində saxlanılacağını, bütün ölkə vətəndaşları, o cümlədən gənclər üçün şəffaf, obyektiv müsabiqə şəraitində işə qəbul, karyera yüksəlişi və digər istiqamətlərdə işlərin bundan sonra da davam etdiriləcəyini, gəncləri inkişafları ilə bağlı narahat edən istənilən mövzuda hər zaman dinləməyə hazır olduğunu bildirmişdir.

Sonra yay məktəbi iştirakçılarına söz verilmiş və ilk olaraq Ekologiya İdarəsinin Ekoloji monitorinq departamentinin Ekoloji tədqiqatlar ekspedisiyasının mühəndisi Orxan Məmmədov çıxış edərək yay məktəbi barəsində təəssüratlarını tədbir iştirakçıları ilə paylaşmış və bu layihənin gənclərə müsbət istiqamətdə təsirindən danışmışdır. SOCAR-ın sıravi işçilərinə şirkətin yüksək rəhbərliyi ilə qeyri-rəsmi mühitdə görüşmək, onları narahat edən sualları rəhbərliyə ünvanlamaq şəraitini yaratmaq baxımdan "SOCAR - Yay məktəbi" layihəsinin əhəmiyyətini xüsusi vurğulamışdır. Həmçinin qeyd etmişdir ki, işlədiyi müddətdə dəfələrlə özüllərdə ezamiyyətlərdə olmuş, oraya getmədən öncə hər dəfə ciddi şəkildə təhlükəsizlik təliması almış və hətta qəza baş verəbiləcəyi halda hər kəsin xilasedici qayıqda yer nömrələri onlara əvvəlcədən paylanılmışdır. O.Məmmədov, həmçinin Ekologiya İdarəsi tərəfindən baş vermiş hadisə ilə əlaqədar ərazidə neftlə çirklənmələrin qarşısının alınması üçün daimi monitorinqlər aparıldığını, bon çəpərləri salındığını və özünün də bu tədbirlərdə aktiv iştirak etdiyini qeyd etmişdir.

Yay məktəbinin digər iştirakçısı, SOCAR-ın Xaricdə Təhsil üzrə Təqaüd Proqramı çərçivəsində Böyük Britaniyanın Nottingam Universitetində təhsil almış, hazırda SOCAR-ın Ekologiya İdarəsinin Ekoloji ölçmə və tullantıların idarə olunması departamentinin mühəndisi Tural Məhərrəmova söz verilmişdir. Çıxışında yay məktəbi təəssüratlarını paylaşmış, layihə çərçivəsində SOCAR-ın müəssisə və təşkilatlarında təşkil edilən ekskursiyalardan, Türkiyənin İzmir şəhərində yerləşən Petkim və STAR neft emalı zavodlarına, Petlim limanına baş tutan səfərlərdən bəhs etmiş və bu səfərlərin onun üçün böyük bir təcrübə olduğunu qeyd etmişdir. Tural Məhərrəmov, həmçinin "Günəşli" yatağında baş verən hadisəyə toxunaraq, SOCAR-ın ekoloji məsələyə ciddi yanaşdığını söyləmiş, hadisədən dərhal sonra neft dağılması və yayılması baş verəcəyi təqdirdə daha geniş ərazinin çirklənməsinin qarşısını almaq məqsədilə platformanın ətrafında bon çəpərlərinin çəkilməsini xüsusi qeyd etmişdir.

Yay məktəbinin digər iştirakçısı, SOCAR-ın Daxili Təqaüd Proqramının məzunu, hazırda SOCAR-ın Əmək şəraiti normalarının işlənməsi idarəsinin iqtisadçısı vəzifəsində çalışan Şöhrət İsazadəyə söz verilmişdir. O, yay məktəbi layihəsindən qazandığı bilikləri, təqdimetmə və layihə idarəetməsi bacarıqlarını tətbiq edərək son bir neçə ayda nailiyyətlərə imza atdığını, hər zaman gənclərə SOCAR-ın dəstəyi və qayğısından məlumat verəcəyini bildirmişdir. Ş.İsazadə qrant müsabiqələrində yay məktəbində əldə etdiyi layihələrin idarə edilməsi sahəsində əldə etdiyi biliklər əsasında hazırladığı "gənc fermerlər" layihəsinin qalib gəldiyini, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 90 illik yubileyinə həsr olunmuş elmi-texniki konfransda yay məktəbində təqdimat bacarıqları sahəsində əldə etdiyi biliklər əsasında çıxış etdiyi təqdimatın rektor tərəfindən fəxri fərmanla təltif edildiyini nailiyyətlərinə misal olaraq göstərmişdir. O həmçinin çıxışında qeyd etmişdir ki, əmək fəaliyyəti müddətində bir neçə dəfə özüllərdə olmuş və həqiqətən də orada peşəkar insanların çalışdığının şahidi olmuş və məlum faciədə belə peşəkar insanların həyatını itirmələrini onun öz ailə üzvünü itirməsi qədər kədərli olduğunu vurğulamışdır.

Tələbələrdən Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisası üzrə təhsil alan 3-cü kurs tələbəsi Kamran Rzayevə söz verilmişdir. O bildirmişdir ki, yay məktəbi müddətində nəinki təhsil aldığı ixtisasla bağlı, həmçinin neft-qaz sənayesinin bütün sahələrini ehtiva edən istiqamətlərdə dərslər və təqdimatlarda iştirak etmək onun dünyagörüşünə və gələcəkdə yaxşı mütəxəssis kimi yetişməsinə təsir edəcəkdir.

Məlumat üçün qeyd edək ki, layihə müddətində iştirakçılar qruplara bölünmüş, hər gün intellektual oyunlar və komanda yarışları keçirilmişdir və nəticədə komandalar gündəlik ballar qazanmışdırlar. Beləliklə də,layihənin 1-ci hissəsinin sonunda toplanan ballar əsasında qalib komandalar müəyyən edilmişdir. 1-ci, 2-ci və 3-cü yeri qazanan komanda üzvləri layihənin 2-ci hissəsində SOCAR-ın xarici ölkələrdəki fəaliyyətləri ilə tanış olmaq üçün müvafiq olaraq SOCAR-ın İsveçrə, Rumıniya və Türkiyə nümayəndəliklərinə, qalib olmayan komandalar arasından seçilən ən layiqli 6 nəfər isə Gürcüstan nümayəndəliyinə səfər etmişdir.

Sonra Asif Bəkirli yay məktəbi iştirakçılarına uğurlar arzulamış və onların "SOCAR Yay Məktəbi- 2015" layihəsində uğurla iştirak etdikləri barədə sertifikatları təqdim etmiş və iştirakçılarla xatirə şəkli çəkdirilmişdir.

**SOCAR-ın İnsan Resursları Departamenti**